BƏHRAM ÇƏLƏBİ

# HƏBSXANA HEKAYƏLƏRİ

İKİNCİ KİTAB

qanun nəşriyyatı

**Bəhram Çələbi. HƏBSXANA HEKAYƏLƏRİ. İkinci kitab**
Bakı, Qanun Nəşriyyatı, 2024, 224 səh.

Yaş qrupu: 18+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 05.12.2024

| | |
|---|---|
| Redaktor: | Samir Mustafabəyli |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor: | Aydın Səlimli |
| Mətn dizaynı: | Sabina Aydın |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-971-5

© Qanun Nəşriyyatı, 2024
© Bəhram Çələbi, 2024

Əgər hekayələri bütövlükdə oxusanız, heç birində oğurluğun, cibgirliyin, "qəssablığın" təbliğ olunmasına rast gələ bilməzsiniz. Sadəcə olaraq, burada səhv yol seçmiş insanlar: Dağlı Cavanşir, Mamlyuk Cəbrayıl, Zinaida Passajkaya, Rəşid oğlu Məhərrəm və başqalarının ağrılı, məşəqqətli, həsrət dolu yaşantıları qələmə alınıb. Təbliğ olunan fikir budur: bu yolu seçmiş insanların dörd divar arasındakı həyatı, tikanlı məftillər arxasındakı yaşamları əksər hallarda faciə ilə bitir.

Bu gün taleyin ixtiyarına buraxılmış, həyatın çətinlikləri qarşısında başını itirərək cinayətkarlıq yolunun astanasında dayanan yeniyetmələrə bircə şeyi bildirmək istərdim: "Həyatını bu yola sərf edib bir zaman milyonlar qazanmış adamların da sonda əliboş, üzüqara olduğunun dəfələrlə şahidi olmuşuq. Bu yol daşlı-kəsəkli, əzab-əziyyətlidir… və sonunda işıqlı heç nə görünmür…"

## DAĞLI CAVANŞİR

KOLONİYADA YIĞINCAQ



Yığıncaq koloniyanın aşxanasında təşkil edilmişdi. Dörd yüz nəfərin bir oturumda nahar edə bildiyi bu zalda indi altı yüzdən yuxarı yeniyetmə məhbus toplaşmışdı.

Əslində bu yığıncaq yox, səhra məhkəməsi idi.

Xleborezkanın qapısı qarşısında qoyulmuş stolun üstündə blatnoyların zəhləsi getdiyi rəngdə, qırmızı məxmərdən örtük çəkilmişdi. Qıpqırmızı örtüyün üstündə qalaq-qalaq şəxsi işlər qoyulmuşdu.

Moskvadan gəlmiş starşiy leytenant olduqca özündən razı, ədabaz, hökumət tərəfindən verilmiş böyük səlahiyyətə görə hətta yan-yörəsində oturmuş şəhər prokuroru, Qroznının milis idarəsinin rəisi, detkolonun xozyaini, kumu və zampolitinə yuxarıdan aşağı baxan KQB əməkdaşı stolun ortasında əyləşmişdi. Hərdən başını döndərib prokurordan, yaxud arxasında əyləşmiş Buqələmundan nə isə soruşanda profildən iri siçovula oxşayırdı.

Aşxananın sərin olmasına baxmayaraq, daim qırmızı peysəri və ikiqat yağlı buxağının tərini göy cib dəsmalı ilə

qurulayan şəhər prokurorunun sifətində yorğunluq aydınca sezilirdi. Tez-tez əsnəyir və buxağını quruladığı dəsmalla ağzını qapayır, gözlərini yumurdu. Əgər baş leytenant olmasaydı, elə buradaca qırmızı məxmərə dirsəklənib məmnuniyyətlə bir-iki saat kimarit eliyərdi. Mürgüləməmək üçün "palaç" koppuş barmaqları ilə piano çalırmış kimi stolu döyəcləyirdi. Hədsiz təkəbbürlü baxışlarla ön cərgədə oturmuş yara-xoralı yeniyetmə məhbusları bir qədər süzdükdən sonra başını sinəsinə doğru əyir, bir anlıq yuxuya getdikdən sonra səksənib qəddini düzəldirdi.

Buqələmun da yorğun idi, bənizi solğunlaşmış, gözləri qızarmışdı. Ancaq o yorğunluq haqqında deyil, sabahkı günü fikirləşirdi. Onu tutduğu vəzifədən azad edə bilərdilər. Onun çinini azaldıb başqa islah əmək koloniyalarından birinə, kiminsə sərəncamı altında işləməyə göndərə bilərdilər. Və nəhayət onu sistemdən qova bilərdilər. O bunların heç birinə dözə bilməzdi. Beş il müddətində həftənin altı günü saat 13:00-dan bir qazan soyutma ət yeməyə öyrəşmiş, adətkar olmuşdu. O dodaqlarını bir-birinə sıxaraq hiddət və nifrət saçan baxışlarını zəif, üzgün, hərdən bədəninin hansısa bir nöqtəsində cövlan edən ağrının şiddətindən canını əsməcə tutduğundan üzünü ovucları ilə qapayan Coni Elmana zilləmişdi. Bir saat əvvəl yığıncaqda şuluq salmasın deyə İlqar Allahverdiyevi Qaysultanovun tapşırığı ilə nəzarətçilər BUR-a apararaq möhkəmcə döymüşdülər. BUR-da İlqardan savayı kimsə yox idi. Yeniyetməyə o qədər işgəncə vermişdilər ki, huşunu itirmişdi.

Yığıncağa sədrlik edən KQB baş leytenantı, paytaxt nümayəndəsi danışırdı. Onun nitqində süni pafos açıq-aydın hiss olunsa da, burada oturanların hamısından yüksək səlahiyyət sahibi olduğundan saymazyana, lakin xüsusi can-

fəşanlıqla, gah yumruğunu havada silkələyərək, gah da barmağı ilə zaldakıları hədələyə-hədələyə, çobanın qoyun sürüsünə qışqırdığı nidalarla danışırdı.

– Dahi Lenin hələ sovet hakimiyyətinin ilk günlərindən ictimai asayişi səylə qorumağa və cinayətkarlarla kəskin mübarizə aparmağa çağırırdı. “Xuliqanlar tərəfindən olan anarxiya cəhdlərini amansızlıqla yatırın” – deyirdi Vladimir İliç. Yoldaş Andropovun da qərarı belədir. Siz ictimai asayişi pozmuş, dövlət məmurunu, prokuroru zorakılıqla, hədə-qoruya tutaraq dama qalxmağa məcbur etmisiniz. Məqsədiniz nə idi? Onu da tərbiyəçi müəllim Qriqori Abramoviç kimi damdan itələyib yıxmaqmı istəyirdiniz?

– Dyadya Qrişanı heç kəs damdan itələməyib, – arxa cərgədən kimsə qışqırdı.

– Kimdir oradan anqıran? Yaxın gəl, görək hadisə necə olub?

Heç kəs yerindən tərpənmədi.

– Qorxaq məlun! Hə, hardasan, mraz? Çıx qabağa, qnidyuk! – Hətta prokurorun onun sözlərinə qıf qoymadığı bir məkanda cinayətkar bir yeniyetmənin etiraz etməsi leytenantı bərk əsəbiləşdirmişdi.

O ayağa qalxıb arxa cərgəyə boylandı:

– Əgər belə qorxaqsansa, niyə burnunu deşikdən çıxarırsan?

– Krısa özünsən, – yenə həmin səs eşidildi və balaca boylu, orta, saçları dazlaşmış gürcü balası Soso arxa cərgədən qalxıb stola yaxınlaşdı.

– Qriqori Abramoviçi damdan sən itələyib yıxmısan! – leytenant qışqırdı.

– Səhvin var, naçalnik. – Soso çox sakit halda cavab qaytardı. – Uçitelin necə yıxıldığını xozyain də, kum da,

vertuxaylar da görüblər. Onu damdan itələyən olmayıb. Sən bu torbanı başqalarının başına keçirə bilərsən.

Sosonun leytenanta "sən" deyib danışması, ümumiyyətlə ondan qorxub-çəkinməməyi zabiti lap təbdən çıxartdı. Onun dadına Qaysultanov çatdı. Kum cəld addımlarla Sosoya yaxınlaşıb arxadan onun kəmərindən yapışaraq azacıq qaldırdı və digər əli ilə kürəyindən itələdi. Yazıq uşaq suda üzən tısbağa kimi havada əl-ayaqlarını oynatmağa başladı. Hər tərəfdən söyüş-fit səsləri eşidildi. Blatnoylar ayaqlarını döşəməyə döyür, əcaib səslərlə bağırırdılar. Qaysultanov işin başqa yöndəmə dönəcəyindən ehtiyatlanıb Sosonu buraxdı və yumruğu ilə blatnoyları hədələyərək yerinə qayıtdı.

Leytenant da deyəsən qorxmuşdu. O səsinə bir qədər mülayimlik verərək kəkələyə-kəkələyə:

– Mənim sizə yazığım gəlir, – deyə, utanmadan yalan söylədi. – Bizim məqsədimiz nədir? Sovet gənclərində, yeniyetmələrində vətənpərvərlik, ataların, babaların işini davam etdirməyə hazır olmaq, birgəyaşayış qaydalarına riayət etmək kimi insani keyfiyyətlər formalaşdırılmasına yardımçı olmaq. Sizdə bu keyfiyyətlər varmı? Niyə qolunuza qırmızı lent bağlamağa qorxursunuz? Əgər sən də həmin barakda yatır, oturur, istirahət edirsənsə, niyə heç olmasa ayda bir dəfə döşəməni silməyəsən? Niyə hər gün istifadə etdiyin "sever" dediyiniz, "qnoynik" adlandırdığınız ayaqyolunu təmizləməyəsiniz? Sizi valideynləriniz, müəllimləriniz tərbiyə edə bilmədiklərindən cinayət yolunu seçmisiniz. Burada biz sizi islah edəcək, tərbiyələndirəcəyik. İslah olunmaq istəməyənlərin cəza müddətini artıracağıq. Biz sizi ictimai-faydalı əməyə, cəmiyyətdə yaşamağa, ləyaqətə alışdırana qədər burada saxlayacağıq.